*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 235-239*

https://doi.org/10.62837/2024.11.235

**SEVİNC CƏFƏROVA**
sevinc.ceferova110@gmail.com
**İSMAYILOVA ÇİMNAZ**
chimnaz_ismayilbeyli@mail.ru
**MƏMMƏDOVA ZENFİRA**
zemfiramamedova1948@gmail.com
**Azərbaycan Tibb Universiteti**
**Səməd Vurğun 167**
**Amu.edu.az**

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ KOMMUNİKATİV SƏRİŞTƏNİN İNKİŞAF ETDİRİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI

**Açar sözlər:** tədris prosesi,kommunikativ pirinsiplər,kommunikativ texnologiyalar,dil vasitələri,ingilis dilinin kompleks şəkilində öyrənilməsi

**Ключевые слова:** учебный процесс,коммуникативные принципы, коммуникативные технологии, языковые средства, комплексное изучение английского языка

**Key words:** educational process,communicative principles,communication technologies,language tools,comperehensive study of the English language

Sosial-mədəni səriştənin inkişaf etdirilməsi istiqamətində işin məqsədyönlü,planlı şəkildə həyata keçirilməsi olduqca vacibdir. Danışıq dilinin xüsusiyyətlərini,tədris edilən dildə şifahi nitqi nəzərə almadan öyrənilən dil haqqında tam şəkildə təsəvvür yaratmaq və öyrənənlərin ixtisas dilində kommunikasiya prosesinə uğurlu şəkildə qoşulmasını təmin etmək qeyri-mümkündür. Danışıq dilinin xüsusiyyətlərinin mənimsənilməsi praktik dil dərslərinə inteqrativ şəkildə daxil edilməlidir. (1,səh 136-143)

Dərslərini planlaşdırarkən müəllim müntəzəm olaraq ingilis danışıq dilinin xüsusiyyətlərinin öyrənilməsinin üsul və yollarına xüsusi diqqət yetirməlidir.Eyni zamanda ingilis dilini tədris edən müəllim səriştənin formalaşması prosesində onların hansı problem və çətinliklərlə üzləşə biləcəklərini ehtimal etməli və şifahi nitqin aşılanması prosesini həmin amilləri nəzərə almaqla təşkil etməlidir.İşin məhz bu istiqamətdə qurulması dil öyrənənlərə lazımi nəzəri bilikləri mənimsəmək və mükəmməl şəkildə mənimsənilmiş nəzəri biliklərin praktiki tətbiqi üçün səmərəli şərait yaradır.

İngilis dilini tədris edən müəllimlərin qarşısında duran əsas vəzifələrdən biri tədrisin keyfiyyətini yüksəltmək və onu Avropa standartları səviyyəsinə çatdırmaqdır.Dili öyrənənlərin təlim prosesinə fəal iştirakçı qismində cəlb edilməsini

təmin edə bilən şərtlərdən ən önəmlisi ingilis dilinin tədrisi posesinin onların tələbat və ehtiyaclarına,yaş səviyyəsinə və eləcə də onların maraq dairəsinə uyğun olan tərzdə qurulmasıdır.

Tələbələrin kommunikasiya yönümlü şifahi nitq vərdişlərinin inkişaf etdirilməsində müəllimin rolu təcrid edilmiş şəkildə deyil,kommunikativ dil təliminin tələbləri çərçivəsində(2,səh 451) qiymətləndirilməli və müəllimin rolu daha aydın nəzərə çarpmalıdır.

Kommunikativ yanaşma əzbərçiliyin əleyhinə olduğundan müəllimlər tələbələti xarici dillərin qayda və sturukturları ilə bağlı biliklərlə təmin edən şəxs kimi qiymətləndirilir.Kommunikativ Dil Təliminin tələblərinə uyğun olaraq ingilis dili müəllimləri dərs zamanı real dil mühiti yaratmalı və tələbləri həm dərsdə,həm də dərsdən kənar mühitdə ingilis dilində qrammatik və leksik çalışmaların icrasına yönəltməkdən daha çox verilmiş situasiyaya və mövzuya uyğun olan dil sturukturlarının işlənməsinə və ya xüsusi dil məsələlərinə yönəltməlidir.

Xarici dil dərslərində dil mühitinin yaradılması tədris olunan dili həm öyrətmək,həm də öyrənmək baxımından əhəmiyyətli məsələdir.Çünki ünsiyyət səriştəsi,eləcə də dilin kommunikativ yolla öyrədilməsi haqqında müasir nəzəriyyənin əsasında ünsiyyətin interaktiv xarakterdə olması təşkil edir.İnteraktivlik isə yalnız və yalnız dil mühitində gerçəkləşə bilər.

Əgər vaxtilə şifahi nitqin inkişaf etdirilməsi kiçik mətnlərin,xüsusilə də dioloji nitq parçalarının əzbərlənməsini nəzərdə tuturdusa,(məsələn,metodik tövsiyyələr olaraq qisa dialoqların və nitq çalışmalarının köməyi ilə verilmiş danışıq şablonlarının əzbər öyrənilməsini və möhkəmləndirilməsini təklif edirlər)formanın deyil,məhz məzmunun diqqət mərkəzində saxlanıldığı kommunikativ yanaşma quru əzbərçiliyin əleyhinədir.Daha doğrusu,interaktivliyə və kommunikativliyə istinad edən prinsiplərin tələblərinə əsasən tələbələr özləri öyrənmə posesinə qoşulmalı,onun tərkib hissəsinə çevirilərək xarici dili mənimsəməyə çalışmalıdırlar.

Kommunikativ dil təlimi kommunikasiyanın yaranmasını önə çəkərək real həyat situasiyalarından faydalanır.Müəllim tələbələrin real həyatda qarşılaşa biləcəkləri situasiyaları qurur.

Kommunikativ dil təlimi həmçinin tələbələrin hədəf dili müxtəlif konteksldərdə işləmələrinə yardım etməklə dil funksiyalarını öyrənmələrini xüsusi ilə vurğulayır.(3,səh:471)

Ceremi Harmer xarici dil öyrənməni sinif daxilində deyil,sinifdən kənar dil mühitində qeyri-iradi baş verdiyini vurğulayaraq yazır: Sinifdən kənar dil öyrənən uşaqların və böyüklərin öyrənmə təcrübəsində müəyyən eynilik var.Birincisi,onlar hətta həmin dildə spontan olaraq danışa bilməsələr belə az-çox anladıqları dillə üzləşirlər,ikincisi,ünsiyyətə girmək vacibliyi onların şəariti,öz dil bacarıqlarını yoxlamaq imkanı verir. (4,səh 45-46)

Müəllifin qeyd etdiyi,bizim də razılaşdığımız kimi dil mühitində" dil daşıyıcılarının əhatəsində"dil öyrəmə daha asan və məhsuldar olur.Təbii dil mühitində dil mənimsəmənin sinif otağında dil öyrənilməsindən fərqi odur ki, məhz dil mühitinə düşmüş insanın ünsiyyət qurmaq, qarşısındakini anlamaq və öz fikrini anlatmaq istəyi onu həmin dili öyrənməyə məcbur edir. Xarici dil dərslərində isə adətən qarşısındakini anlaya bilmək məcburiyyəti və başa düşülməmək qorxusu olmur, çünki ana dilində asanlıqla öz fikrini izah edən və qarşı tərəfdə fikrin xarici dildə izah olunması tələbi ilə qarşılaşmayan tələbənin işi "asanlaşır" ki, elə əslində əsl çətinlik də məhz budur.

Qrammatik və leksik bilikləri aktivləşdirilmək məcburiyyəti tələbi meydana çıxmadığından tələbələrin həmin biliklərini passiv olaraq qalır. Deməli müəllimlər tələbələrin yiyələndikləri dil biliklərindən aktiv istifadə edə bilmələri, eyni zamanda yeni bilik və bacarıq əldə edə bilmələri üçün real dil mühiti yaratmağı bir məqsəd kimi qarşılarına qoymalı və optimal vasitələrdən istifadə edərək bu məqsədə nail olmalıdırlar.

**Ədəbiyyat**

1) Alptekin C. Target Language Culture in EZT. Materials // EZT, 1993 47, 2, p.p. 136-143
2) Bailey K.M. and D. Nunan (Eds) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451 p.
3) Jack C. Richards. Communicate Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.
4) Harmer J. English language teaching, 2005, p.p. 45-46

**Xülasə İngilis dili dərsində kommunikativ səriştə Cəfərova Sevinc**

Metodikanın diqqət mərkəzində olan əsas məsələlərdən biri tədris edilən xarici dildə kommunikativ səriştənin aşılanması və qiymətləndirilməsi yollarıdır.

Təqdim olunan məqalədə ingilis dili dərslərində kommunikativ yönümlü dil çalışmaları vasitəsilə nitq yolları göstərilir. Məqalənin hansı aspeltdən aparıla biləcəyini, dərsin mərhələlərini və bu mərhələdə vacib olan kommunikativ-yönəlmiş dil çalışmalarından bəhs edilir. Bu çalışmalar, mətnin dinlənilməsi, dinləmə mətnin inşa məzmununun nəql, dialoqların qurulması və s. aiddir.

Məlum olduğu kimi kommunikativ kompetensiya aşağıdakı əsas komponentlərdən ibarətdir: qrammatik kompetensiya, diskursiv kompetensiya, sosiolinqvistik kompetensiya, strateji kompetensiya.

Qrammatik kompetensiya dilin lüğət tərkibi, sintaksis, morfologiya, fonologiya ilə əlaqəli olduğu halda, diskursiv kompetensiya nitqin səlisliyi, natiqlik məharəti, sosiolinqvistik kompetensiya ritorika, bədii ifadələr, dialekt, üslub xüsusiyyətləri, sosiomədəni səriştə, strateji kompetensiya isə nitqin sərbəstliyi və təbiiliyi ilə əlaqələndirilir. Avropa Şurasının nəzdində Müasir Dillərin Tədrisi Mərkəzinin

eksperti, tanınmış dilçi-alim Van Ek tərəfindən təqdim edilmiş təsnifatda kommunikativ kompetensiyanın 6 kompenenti göstərilir. Belə ki, qrammatik (linqvistik), diskursiv, sosiolinqvistik və strateji kompetensiyaladan ibarət olduğu siyahıya sosial və sosiomədəni kompetensiyalar əlavə edilir.

“Kommunikativ kompetensiya” terminini “kommunikativ dil qabiliyyəti” termini ilə əvəz edən Bachman və Palmer onun 3 komponentdən ibarət olduğunu qeyd edirlər: dil kompetensiyası, strateji kompetensiya və onları idarə edən psixoloji mexanizmlər. 2001-ci ildə Avropa Şurası tərəfindən təqdim edilmiş təsnifatda kommunikativ kompetensiyanın aşağıdakı 3 komponenti təqdim edilir: sosiolinqvistik, linqvistik və praqmatik.

**CAFAROVA SEVINC**
**İSMAYILOVA CİMNAZ**
**MAMMADOVA ZENFİRA**

## SUMMARY

## COMMUNICATIVE COMPETENCE IN ENGLISH CLASS

One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in Zinguistics. Sinse its emergence this notion caught the attention and new refearches appeared. It is noted that this gives us more power to understand the process clearly.

The article deals with the main strategies in developing oral speech in language faculties and working out effective ways of speaking skills. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners` ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teaching oral speech more effective. While analyzing great attention was given to the facts taken from the literature. Learners at all proficiency levels, including beginners, benefit from this variety. It is more motivating and it is also more likely to result in effective language learning. Students often think that ability of speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 235-239*

**РЕЗЮМЕ**
**КОММУНИКАТИВНАЯ КОМПЕТЕНТНОСТЬ НА УРОКЕ АНГЛИЙСКОГО ЯЗЫКА**

Следуй отметить ето в настоящее время происходят значительные изменения в методике обучения иностранным языкам, и, в перьую очередь, являющемуся основным языком общения на глобальном уровне английскомуя разрабатываются творчиские лигоды преподавания, предполчающие обучение пумем вовлечения обучаемых в процесс изучения языков в качестве заинтересованных, мотивированных участников данного процесса. В данной статье рассматриваются к вонросу стратегии на формирование коммуникативных компентенций на английском языке в условиях вуза. В когда условиях, обучение иностранному языку приобретает особое значение, к преподавателю предъявляются достаточно высокие мребования, в соответевии с которыми речь его фолжна быть максимально приб лижено речи лингвистически образоват ного носителя языка, что предполагает, в часности, умение.

**Rəyçi: Məmmədova Z.Ş.**